Prezident Barak Obamanın
Ramazan ayı münasibətilə müraciəti

Amerika xalqı, o cümlədən əlli ştatın hər birində yaşayan Müsəlman icması adından Amerikada və dünyanın hər bir yerindəki Müsəlmanlara öz səmimi arzularımı çatdırıram. Ramazan Kərim.

Müsəlmanların dini inancına əsasən Quran, Məhəmməd Peyğəmbərə məhz Ramazan ayında, iqra kəlməsi ilə nazil olmuşdur. Bu səbəbdən, bu ayda Müsəlmanlar dinin onlara buyurduğu şəkildə müdriklik və iman göstərir, insanların bir-birləri, eləcə də Allah qarşısında olan məsuliyyəti daha da artır.

Amerikadakı yerli Müsəlman icmaları vasitəsilə Ramazan ayı ilə bağlı məlumatlı olan müxtəlif dini etiqad sahibli insanlar və ailələr kimi mən də bilirəm ki, bu, bayram ayıdır, bu ayda ailələr bir araya gəlir, dostlar iftar süfrəsi açır və bir-birlərini qonaq edirlər. Mən həm də bilirəm ki, Ramazan möhkəm sədaqət və düşüncə ayıdır, bu ay ərzində Müsəlmanlar gün ərzində oruc tutur, gecələr təravih namazı qılır, bütün ay boyunca Qurandan surələr oxuyur və dinləyirlər.

Bu ayinlər, bizə malik olduğumuz ortaq prinsiplərimizi xatırladır və ədalət, tərəqqi, dözümlülük və hər bir insanın ləyaqətinin önə çəkilməsində İslam dininin rolunu vurğulayır.

Məsələn, insanları Allaha daha da yaxınlaşdırmaq və yeməyə möhtac olanları daha yaxşı anlamaq məqsədi daşıyan oruc, bir çox dinlərə, o cümlədən mənim mənsub olduğum Xristian dininə xas olan ortaq dəyərdir. Müsəlmanların digərlərinə göstərdikləri yardım, bizə dünyanın hər bir yerində olan insanlara imkan yaratmaq və onların çiçəklənməsini təmin etmək məsuliyyətimizi bir daha xatırladır. Hər birimiz yadda saxlamalıyıq ki, bizim qurmaq istədiyimiz dünya və nail olmaq istədiyimiz dəyişikliklər ilk növbədə ürəyimizdə və ətrafımızda baş verməlidir.

Bu ibadət dövründə Amerikanın müxtəlif yerlərindəki insanlar öz icmalarına xidmət göstərmişlər, övladlarına təhsil vermiş, xəstələrə qulluq etmiş və çətinliyə düşənlərə yardım əllərini uzatmışlar. Dini etiqad əsasında fəaliyyət göstərən təşkilatlar, o cümlədən bir sıra İslam təşkilatları bu xidmətlərin göstərilməsində ön sıralarda dayanmışlar. Biz məsuliyyət hissimizi çətin dövrlərdə, eləcə də qarşıdan gələn aylarda və illərdə də yüksək səviyyədə qoruyub saxlamalıyıq.

Biz, daha təhlükəsiz və sülh şəraitində mövcud olan bir dünyanın qurulması öhdəliyimizə Amerikanın sərhədlərindən kənarda da fəal şəkildə əməl edirik. Buna görə də, biz İraqda müharibəyə son qoyulmasına məsuliyyət daşıyırıq. Bu məqsədlə biz, Əfqanıstan və Pakistan kimi yerlərdə insanların imkanlarını daha gücləndirməklə zorakı ekstremistlərin təcrid olunmasına nail oluruq. Biz, İsrail və Fələstin xalqının sülh və təhlükəsizlik şəraitində yaşamaq hüquqlarını tanıyan və problemin iki dövlət üzərində qurulan həll yolunu yaxından dəstəkləyirik. Buna görə də, Amerika hər zaman insanların öz fikirlərini ifadə etmək, dini etiqad kimi ümumbəşəri hüquqlarının qorunmasını müdafiə edəcək, onların cəmiyyətə töhfə vermələri və qanunun aliliyinə tam şəkildə inanmalarını təmin etmək üçün çalışacaqdır.

Bütün bu səylərin həyata keçirilməsində Müsəlmanların və əhalisinin əksəriyyətini Müsəlmanlar təşkil edən dövlətlərin qarşılıqlı maraq və qarşılıqlı hörmət əsasında iştirakını təmin etmək Amerikanın marağındadır. Bu dirçəliş dövründə mən, Amerika və dünyanın müxtəlif yerlərində yaşayan Müsəlmanlar arasında yeni bir dövrün başlanması üçün verdiyim

dəstəyi bir daha bəyan etmək istəyirəm.

Qahirədə olarkən qeyd etdiyim kimi, bu yeni başlanğıc bir-birini dinləmək, bir-birindən öyrənmək, bir-birinə hörmət etmək və ortaq məxrəcə gəlmək üçün davamlı şəkildə səy göstərməklə yaranmalıdır. İnanıram ki, buna nail olmaq üçün bir-birimizi dinləmək çox vacibdir və ötən iki ay ərzində dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən Amerika səfirlikləri təkcə yerli hökumətlərlə deyil, eyni zamanda əhalisinin əksəriyyətini Müsəlmanlar təşkil edən ölkələrdəki insanlarla birbaşa ünsiyyət qurmuşlar. Dünyanın müxtəlif yerlərindən bizə olan çoxsaylı müraciətlərdə Amerikanın insanların istəkləri adından çıxış edən bir tərəfdaş olması qeyd olunur.

Biz dinlədik. Biz sizi eşitdik. Sizlər kimi biz də, diqqətimizi vaxt keçdikcə siyasi və təhlükəsizlik sahəsindəki qeyd etdiyim problemlərin həllində, eləcə də insanların həyatında daha çox dəyişikliklərə səbəb olacaq konkret addımların atılmasına yönəltmişik.

Bu məsləhətləşmələr bizə, Qahirədə olarkən bəyan etdiyim tərəfdaşlığı həyata keçirməyə - təhsil mübadilə proqramlarını artırmağa, sahibkarlıq fəaliyyətini gücləndirməyə və yeni iş yerləri yaratmağa, təhsilin və peşə təliminin dəstəklənməsi ilə elm və texnologiya sahəsində əməkdaşlığı artırmağa kömək edir. Biz eyni zamanda İslam Konfransı Təşkilatı (İKT) və İKT-in üzv dövlətləri ilə birlikdə poliomiyelit – yoluxucu uşaq iflici xəstəliyinin aradan qaldırılması istiqamətində əməkdaşlıq edirik, eləcə də, xüsusilə qarşıdan hələn həcc ziyarətinə hazırlaşan bir çox Müsəlmanları narahat edən H1N1 virusu kimi ümumi səhiyyə problemlərinə qarşı aparılan mübarizədə beynəlxalq ictimaiyyətlə sıx çalışırıq.

Bütün bu səylər, bizim sülh və təhlükəsizlik şəraitində yaşamaq, təhsil almaq və ləyaqətlə çalışmaq, ailəmizi, yaxınlarımızı və Allahı sevmək kimi ortaq istəklərimizin həyata keçirilməsi məqsədi daşıyır. Buna nail olmaq üçün isə zaman və səbr tələb olunur. Biz dəyişikliyə bir günün içərisində nail ola bilmərik, lakin özümüzün və övladlarımızın gələcək rifahı naminə yeni istiqamət müəyyən edərək, həyata keçirilməsi tələb olunan addımları ata bilərik. Biz bu yolu birlikdə addımlamalıyıq.

Mən son dərəcə vacib olan bu dialoqun davam edəcəyinə və əməli fəaliyyətlə nəticələnəcəyinə böyük ümid edirəm. Bu gün mən, dünyanın müxtəlif yerlərində yaşayan 1.5 milyard Müsəlman əhalisinə, sizin ailə üzvlərinizə və dostlarınıza qoşularaq Ramazan ayını salamlayıram və bu müqəddəs ayda sizə uğurlar arzu edirəm. Qoy Allah sizi qorusun.